**SAHİBƏ PAŞAYEVA**
**AMEA Folklor İnstitutu**

# AZƏRBAYCAN ƏFSANƏLƏRİNİN TOPLANMASINDA SƏDNİK PAŞAYEVİN XİDMƏTLƏRİ

Əfsanələr xalqımızın tarixi qədər qədim və zəngin olan folklorumuzun qüvvətli qollarından biridir. O xalq tərəfindən yaradılmış söz sənətidir və onun tarixini, arzu və istəklərini tərənnüm edir.

Əfsanələr xalqın həyatını, xalqın müqəddaratı baxımından əhəmiyyətli tarixi hadisələri əks etdirir. Burada real varlığın inikası ilə bərabər bədii uydurma, fantaziya da böyük rol oynayır. Ən qədim əsərlərdə mifilogiya izləri olur. Mifilogiya isə bir dünyadır. Ucu-bucağı görünməyən bir dünya. O insanın mənəvi mədəniyyətinin strukturmodelini təşkil edir. Xalqımızın mifik dünyagörüşü əfsanələrin yaranmasında yaxından iştirak etmişdir. Mif və əfsanələrin kökü də bir ocaqdan – Azərbaycan xalqının mifik dünyagörüşündən qidalanmağa başlamışdır.

Əfsanələr xalqımızın tarixi yaddaşıdı. Burada onun mifoloji şüuru əks olunmuşdur. Bu folklor nümunəsi sayılan əfsanələrdə məişətimiz, inanclarımız da öz əksini tapmışdır. Onlar özlərinin quruluşlarına görə kiçik həcmlidirlər. Və məna tutumuna, struktur baxımına görə folklorun digər növlərindən fərqlənirlər.

Əfsanələr totemik məzmunlu, dağ, ağac, su kultu ilə reinkarnasiya olurlar, həmçinin, astral kosmoqonik mənşəyə malikdirlər. Filologiya elmləri namizədi R.Əliyev yazır ki, "Əfsanə epik janr növüdür. Orada hər hansı bir əhvalat, hadisə, dünyabaxışı, mifiloji görüş diqqətə çatdırılır. Hadisələri, əhvalatları, dünyagörü-şünü əks etdirmək baxımından əfsanə daha çox mifə yaxındır".

Əfsanələri qoruyub saxlamaq, bu əvəzsiz sərvəti xalqa çatdırmaq yaxından onu öyrənərək araşdırmaq, təhlil etmək çox vacibdir.

Folklor nümunələrimizin öyrənilməsi tarixində bir çox tədqiqatçı alimlərimizin adlarını çəkə bilərik. Bunların sırasında S.Mümtazın, P.Əfəndiyevin, M.H.Təhmasibin, M.Seyidovun,

Q.Namazovun, V.Vəliyevin, A.Nəbiyevin adları öz dəyərli əsərləri ilə dayanır. Onlar folklorun tarixini tədqiq etmiş və özlərindən sonra zəngin bir irs, böyük bir yaradıcılıq məktəbi qoyub getmişlər. "Azərbaycan folklorşünaslığında ömrünü folklora həsr edib özü də folklorlaşan alimlər var. Folklor bu adamların ruhunda yaşayır və şəxsiyyətlərini, davranışlarını içəridən təmin edir".

İmzası imzalar içində olan, Azərbaycan əfsanələrini damla-damla toplayıb ərsəyə gətirən folklorşünas alimlərimizdən biri də Sədnik Paşa Pirsultanlıdır. Görkəmli folklorşünas alim, şair publisist S.P.Pirsultanlı onlarca samballı elmi monoqrafiya və dərsliyin, bir çox şeir kitabının müəllifidir. O, 50 ildən artıq bir dövrdə torpaqlarımızı qarış-qarış gəzmiş, şifahi xalq ədəbiyyatı nümunələrimizi, nadir söz incilərimizi toplamışdır. Məhz onun fədakar əməyi sayəsində saysız-hesabsız əfsanələrimizin bir qismi öyrənilərək xalqın istifadəsinə verilmişdir.

Ş.P.Pirsultanlı Daşkəsən rayonunda anadan olmuşdur. O, təbiətə daha çox yaxın olmaq, torpağın ətrini daha dərindən duymaq, xalqın deyimlərini daha çox dinləmək üçün Azərbaycan tarixinin qədim ərazilərindən sayılan Gəncədə yaşamış və işləmişdir. Bundan da onun folklor aləminə, el-obamıza sayahəti başlamışdır.

S.P.Pirsultanlının alim ömründə əfsanələrimizin araşdırılması da mühüm yer tutur. O, 1999-cu ildə "Azərbaycan xalq əfsanələri və onun tədqiqi problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə edir. Tədqiqatçı-alim doktorluq dissertasiyasına qədər bir tədqiqatçı ömrü yaşamışdır. 1983-cü ildə çap etdirdiyi "Nizami və xalq əfsanələri" monoqrafiyası Azərbaycan nizamişünaslığına və folklorşünaslığına əvəzsiz bir hədiyyə idi. Bu əsər ciddi elmi axtarışların nəticəsi idi.

1985-ci ildə S.P.Pirsultanlı əfsanələrin tədqiqi ilə bağlı daha bir kitabı "Azərbaycan əfsanələrinin öyrənilməsi" adlı elmi əsərini ədəbi ictimaiyyətə təqdim edir. Burada alim əfsanələrimizin araşdırılması məsələlərinə aydınlıq gətirirdi. 1985-ci ildə "Azərbaycan xalq əfsanələri" adlı toplusu işıq üzü gördü. Kitabı hədiyyə kimi alan Azərbaycanın xalq şairi Bəxtiyar Vahabzadə minnətdarlıq məktubunda yazırdı: "Sağ ol ki, böyük iş görmüsən. Bu xidmətin –

böyük bir işin heş əvəzi yoxdur. Bu xidməti heç şeylə müqayisə etmək olmaz".

S.Paşayev Azərbaycan əfsanələrini öyrənmiş, bu əfsanələrdən doğan dəyərli bir əsər yaratmışdır.

O, bizim mədəni mədəniyyətimizin ən qədim hissəsi olan əfsanələrimizlə müasir folklor elmimizlə bir əlaqə yarada bilmişdir. Azərbaycan öz elmi və hüquqi bəraətini S.P.Pirsultanlının elmi tədqiqatlarında da tapmışdır.

Sədnik Paşa Pirsultanlının əfsanələri folklorumuza verdiyi əvəzsiz bəxşişdir. Onun elmi yaradıcılığında "Yaşayan əfsanələr" (1973), "Yurdumuzun əfsanələri" (1976), "Nizami və folklor" (1976), "Yanardağ əfsanələri" (1978), "Nizami və xalq əfsanələri" (1983), "Azərbaycan mifoloji mətnləri" (1988), "Azərbaycan xalq söyləmələri" (1992) kimi toplu və tədqiqat əsərləri də əfsanə və rəvayətlərə həsr olunmuşdur.

Alimin 2007-ci ildə "Azərbaycan əfsanə və rəvayətlərinin ədəbi abidələrimizlə müqayisəli tədqiqi" adlı monoqrafiyası çapdan çıxdı. Bu əsər beş fəsildən ibarətdir və S.Pirsultanlının əfsanə və rəvayət janrları haqqında çox maraqlı və yeni nəzəri düşüncələri ilə diqqəti cəlb edir. Burada Azərbaycan əfsanələrinin keçdiyi tarixi yola, formalaşma mərhələlərinə nəzər salınmışdır.

Azərbaycan əfsanələri xalq həyatının, məişət və təfəkkürümüzün ayrılmaz bir parçasıdır. Məhz buna görə də zamanın küləklərinin, daşqın və sellərinin bu daşın yuyulub aparılmasına yol verməməliyik. Aparılan elmi-tədqiqat işləri də bu baxımdan diqqətəlayiqdir. S.P.Pirsultanlı Azərbaycan əfsanə və rəvayətlərinin ədəbi abidələrimizdə nə kimi rol oynadığını da göstərə bilmişdir. Azərbaycan eposşünaslığında S.Paşayev təzə ehtimallar söyləmişdir. O həm də bu ehtimallarında, əsasən, tarixi həqiqətlərlə yaxından səsləşən əsatir və əfsanələrə arxalanmışdır".

S.Paşayevin araşdırılan problem üzrə elmi məxəzlərə dərindən bələd olduğun-dan, tədqiqat obyektinin mənasını və məqsədini dərindən dərk etdiyindən gözəl elmi nəticələr əldə edə bilmişdir. Onun araşdırmaları əfsanə haqqında aydın təsəvvür yaradır. Alim topladığı əfsanələri xalqımızın elmi xüsusiyyətləri və tarixi koloriti ilə seçilir, xalqın ictimai-əxlaqi baxışlarını əks etdirir. Alimin

toplayaraq oxuculara təqdim etdiyi toplu və elmi əsərlərlə Azərbaycan xalqına xas olan mənəvi dəyərləri öyrənmək mümkündür.

S.P.Pirsultanlıya görə ən qədim əsatirlərimiz "Məlikməmməd" kimi nağılları-mızda, Nizami "Xəmsə"sində, "Aldədə-Dədə Günəş" əfsanələrində, "Koroğlu" eposunun "Alı kişi" hissəsində qalmış və bu əsatirlər zaman keçdikcə epikləşmiş və onun törəmələri olan əfsanələrin yaranmasına və yayılmasına səbəb olmuşdur.

## ƏDƏBİYYAT

1. Pirsultanlı S. "Azərbaycan əfsanə və rəvayətlərinin ədəbi abidələrimizlə müqayisəli tədqiqi". Bakı, 2007.

2. Pirsultanlı S. Azərbaycan folkloruna dair tədqiqlər. Gəncə, 2006.

3. S.P.Pirsultanlı Heca vəznli tapmacaların inkişafı. Gəncə, 2001.

4. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. I cild, "Turan" nəşrlər evi, Bakı, 2002.

5. S.Rzasoy. Azərbaycan folklorşünaslıq tarixi və Sədnik Paşa Pirsultanlı. Bakı, 2008.

6. Əliyev R. Mif və folklor: genezisi və poetikası. Bakı, 2005.

7. "Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər". XII kitab. Bakı, 2006.

8. Hüseynoğlu R. Qədim Turani – Mifdən tarixə doğru. Bakı, 2006.

# ЗАСЛУГИ ПРОФ. САДНИКА ПАШАЕВА В СОБИРАНИИ АЗЕРБАЙДЖАНСКИХ ЛЕГЕНД

## РЕЗЮМЕ

Легенды, занимающие широкое место в устном народном творчестве, являются одной из жанров фольклоре. Они наполовину важны своей легендностью и наполовину своей исторической ценностью. Большое количество учёных внесли свой вклад в исследование легенд.

С.П.Пирсултанлы, несвятивший 50 лет своей сознательной жизни изучению национального фольклора и в особенности сбору и изданию легенд, является одним из таких исследователей.

С.П.Пирсултанлы, выдвинув ряд своих теоретических выкладом в этой области, сыграл значимую роль в развитии и формировании жанра легенд.

# THE SERVICES IN GATHERING OF AZERBAIJAN LEGENDS OF SADNIK PASHAYEV

## SUMMARY

Legends are the parts of the folklore which take great place in the oral literature of the nation. They are of partly legendary, partly historical value.

There are a number of scientists who have played great role in the investigating these legends. Sadnik P.Pirsultanli is one of these investigaters who have his 50 year for collecting and publishing national folklore, especially legends. Having written a lot of articles, books on this matter, he put forward his own theories and played considerable role in developing this geure.